iki sahil
www.ikisahil.az / www.ikisahil.tv

CƏMİYYƏT

## QÜDRƏT ORUCOV - 100

# Görkəmli pedaqoq, müəllim və mədəniyyət xadimi





**Martın 5-də Azərbaycan Dövlət Pedaqoji Universitetində görkəmli pedaqoq, müəllim və mədəniyyət xadimi Qüdrət Orucovun 100 illik yubileyi münasibətilə təntənəli tədbir keçirildi. Tədbirdə ictimai və siyasi xadimlər, ziyalılar, universitetin müəllim və tələbə heyəti iştirak etdilər.**

Tədbiri giriş sözü ilə açan "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev Qüdrət Orucovun həyat və yaradıcılığından geniş bəhs edib. Alqış Musayev onun doğulduğu Qərbi Azərbaycana qayıdışın bu gün əsas hədəflərimizdən biri olduğunu önə çəkərək, dövlətimizin tarixi ədalətə söykənən siyasətinin uğurlarını diqqətə çatdırdı. Bildirdi ki, tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması hər birimiz üçün qürurdur. Xalqımız tam əmindir ki, tezliklə bu müjdənin də şahidinə çevriləcəyik - Biz Qərbi Azərbaycana qayıtdıq!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov qeyd etdi ki, görkəmli ziyalılarımızdan biri olan Qüdrət müəllimin yubileyi mühüm bir hadisədir. Hörmətli Elza Orucova Qüdrət müəllim haqqında yazılmış kitabı mənə təqdim etdi. Açığını desəm, həmin görüşdən sonra bu kitab məni çox maraqlandırdı. Onu oxuduqca anladım ki, belə əsərlər insanı öz kökünə, Vətəninə daha da dərin bağlayan qiymətli mənbələrdir. Bugünkü görüş, əslində, həm görkəmli bir məzunumuzun xatirəsinə ehtiramın ifadəsidir, həm də böyük bir müəllimin pedaqoji irsinə verilən dəyərdir. Açığını deyim ki, Qüdrət müəllimi şəxsən tanımırdım, lakin bu kitabda yer alan xatirələri oxuyaraq onun necə fədakar bir kənd müəllimi, xalqın dəyərlərini çiyinlərində daşıyan, çətin dövrlərdə belə əvəzsiz xidmət göstərən bir insan olduğunu gördüm. Bu yubileyin təşkil olunması universitetimizin mənəvi borcudur. Bu zalda indiyə qədər çox yubileylər keçirilib, görkəmli insanlarla görüşlər təşkil olunub. Elə həmin kitabda yer alan yazılardan birində İlyas Tapdıq, Qüdrət müəllimin tələbəlik illərində burada Səməd Vurğunla görüşündən bəhs edir. Həmçinin, həmin dövrün görkəmli müəllimləri xatırlanır, İsmayıl Şıxlı haqqında xoş sözlər deyilir. Azərbaycanda memuar ədəbiyyatı geniş yayılmadığından, insan belə materialları böyük maraqla oxuyur. Tarixi bilmək kifayət etmir, onu incəliklərinə qədər dərk etmək üçün məhz bu cür memuar əsərlərinə müraciət etmək lazımdır. Kitabda yer alan xatirələr həmin dövrün ruhunu yaşadır. Bu gün orada xatirələri qeyd edilən insanların bəziləri də burada iştirak edirlər və onların çıxışları sayəsində Qüdrət müəllimin obrazı daha da aydın canlanacaq. Bu görüşün başqa bir mühüm tərəfi də odur ki, o, gənclərimiz üçün nümunə rolunu oynayır. Çünki kitabda yer alan xatirələrdən göründüyü kimi, Qüdrət müəllim dövrünün başqalarına örnək ola biləcək şəxsiyyətlərindən biri olub. Onun uşaqlıq və gənclik illəri, çətinlikləri, hətta tələbəlik dövründə yataqxanada yer tapmaq üçün verdiyi mübarizə belə, bir roman süjetini xatırladır. Bu məsələlərin qeyd olunması yalnız tarixi faktları yaşatmaq deyil, həm də ölkəmizin qarşısında duran yeni hədəflərə işıq salmaq məqsədi daşıyır. Biz torpaqlarımıza qayıdacağıq və bu qayıdış yalnız siyasi şüarlarla deyil, o torpaqlarda yaşamış insanların xatirəsini əziz tutmaqla, onların mirasını qorumaqla mümkün olacaq. Klassiklərdən biri deyirdi ki, ideyalar yalnız insanlar onları qəbul edib mənimsədikdə gücə çevrilir. Ona görə də qayıdış konsepsiyasının uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri onun gənc nəsilə düzgün çatdırılmasıdır.







Kimya elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru, "Həyat təhlükəsizliyi" kafedrasının müdiri İsmayıl Əliyev vurğuladı ki, bu gün burada keçirilən bu dəyərli tədbir gənclərimizin maarifləndirilməsi, tariximizi onlara xatırlatmağın vacibliyi baxımından çox mühümdür. Bu tədbir dəyərli ziyalımız Qüdrət müəllimin 100 illik yubileyinə həsr olunub. O, 1924-cü ildə anadan olub, 1979-cu ildə dünyasını dəyişib. 18 yaşında - 1942-ci ildə əsgərliyə gedib, 1946-cı ildə xidmətini başa vurub. Cəbhədə yaralanaraq müalicə aldıqdan sonra yenidən döyüş meydanına qayıdıb. O, igidliyinə görə "Qırmızı Ulduz" ordeni və bir çox medallarla təltif olunub.

Qüdrət müəllim çox fəal ictimai xadim olub. Əvvəlcə Vedi rayonunda ictimai təminat şöbəsində çalışıb, daha sonra Meqridə kolxoz sədri olub. 20 il məktəb direktoru kimi çalışıb, o dövrdə Nüvədi kənd məktəbindən beynəlxalq bir təhsil ocağı yaratmışdı. Onun dövründə 10-cu sinfə qədər azərbaycanlılar, 7-ci sinfə qədər ermənilər oxuyurdu. O vaxtlar azərbaycanlıların məktəblərinə lazımi diqqət göstərilmədiyi halda, o, kənddə təhsilin səviyyəsinin yüksəlməsi üçün çox səy göstərib, məktəbin bir növbəliliyinə keçməsinə nail olub.

*Məktəbdə tədris ilinin başlanğı*cında 170 limon ağacı dibçəklərdə həyətə çıxarılır, yaya qədər yaşayır, bu da məktəbə fərqli ab-hava qatırdı. Həmçinin Qüdrət müəllim məktəbdə kiçik bir muzey yaratmış, orada kənd təsərrüfatı alətlərini və tarixi eksponatları toplamışdı. Qüdrət müəllim tarixə çox dərindən bələd idi. O, Meğridəki qoç heykəllərinin Qaraqoyunlu və Ağqoyunlu tayfalarının simvolu olduğunu araşdırmış və bu abidələrin ermənilərə aid olmadığını ortaya qoymuşdu. Ermənistan Elmlər Akademiyasının prezidenti bu heykəllərin türklərə aid olduğunu etiraf etdikdən sonra onlar yer altına basdırıldı. O, həmişə öz gəncliyinin izində olmuş, onlara tarixə böyük maraq aşılamağın vacibliyini vurğulamışdı. Platonun bir sözü var: "Həyat yaşamaqdan ibarət deyil, yaşamağa dəyər bir şey yaratmaqdan ibarətdir." Qüdrət müəllim bu prinsipə sadiq qalaraq tarix yaratmışdı.

Yeni Azərbaycan Partiyası Təftiş komissiyasının üzvü Musa Musayev bildirdi ki, bu gün bu zalda çıxış etmək həm məsuliyyətli, həm də çətindir: "Çünki burada, Hidayət müəllim başda olmaqla, bizim çox gözəl və tanınmış ziyalılarımız əyləşiblər. Bu zalda oturan şəxslər bizim doğmalarımız, əzizlərimizdir. Mən burada çıxış etdikcə özümü bu insanlar arasında hiss edirəm, hər biri bizim üçün çox dəyərlidir. Mən inanıram ki, o gün uzaqda deyil. İnşallah, o gün yaxınlaşacaq. Biz belə ildönümləri, yubileyləri Meğridə, Nüvədidə, Maral Cəmidə, Leyfazda, Əl Dərədə keçirəcəyik. Orucovlar və Musayevlərin dostluq tarixi 70 ilə bərabərdir. 70 il bundan əvvəl, mənim atam Həzi Musayevlə, Hidayət müəllimin, Bəxtiyar müəllimin və Qüdrət müəllimin dostluğunun təməli qoyulub. Bundan da əvvəl, mənim Əli babamla Hidayət müəllimin dayısı Əli Məmmədovun dostluğu və qardaşlığı olub. Bu nəsil davam edərək bu günə gəlib çatıb. Təbii ki, Qüdrət müəllim özü burada iştirak edir, onun ruhu bu gün bizim başımızın üzərindədir. Qüdrət müəllim, o dövrdə Meğri rayonunda məktəb direktoru olsa da, həmişə öz sözünü deyən, şərəflə, ləyaqətlə, dövlətinə, millətinə xidmət edən bir şəxsiyyət olub. Mən bir hadisəni xatırlayıram: 70-ci illərdə, Meğridə bir tədbir keçirilirdi. Tədbirdə Siyasi Büronun üzvlərinin şəkilləri göstərilirdi, amma Heydər Əliyevin şəkli yox idi. Hidayət müəllim öz iradını bildirdi və təhsil şöbəsinin müdiri ilə məktəb direktoruna xəbərdarlıq etdi ki, Heydər Əliyevin şəkli siyahıda olmalıdır. Bu cür cəsarətli və mərd insanlar həmişə öndə olublar. Bir daha qeyd etmək istəyirəm ki, mənim böyük qardaşım və ailəm, həmçinin dostlarım, qardaşlarım Soltan müəllimlə həmişə əlaqə saxlayırıq və bir-birimizi unutmuruq. Bizim dostluğumuz və qardaşlığımız bu gün də davam edir. Mən inanıram ki, nə vaxtsa bu gözəl günlərdə, biz doğma yurdlarımıza, dədə-baba ocaqlarımıza qayıdacağıq."

Azərbaycan Tibb Universitetinin ictimai fənnlər kafedrasının müdiri, fəlsəfə elmlər doktoru Qoşqar Əliyev qeyd etdi ki, Ulu Öndərimiz Heydər Əliyev sağlığında hakimiyyətə gəldiyi ilk gündən etibarən ziyalılarımızın, mədəniyyət xadimlərimizin, mütəfəkkirlərimizin yubileylərini keçirib. Bu insanlar bütün xarakterləri, qabaqcıl cəhətləri, ölkə və xalq üçün faydalı yönləri ilə gənc nəsilə örnək olmalıdırlar. Ulu Öndərimizdən bizə miras qalan bu cür tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir. Qüdrət müəllim haqqında çox danışılıb. Ancaq o qədər çox işlər görüb, əhəmiyyətli addımlar atıb ki, onun fəaliyyətini tam əhatə etmək mümkün deyil. Ancaq yaşadığı dövrdə gördüyü işlər və yaratdığı əsərlər onun xalqımızın tarixində və bölgəmizin tarixində hər zaman yaşamasını təmin edəcək. Arzum odur ki, biz Zəngəzur mahalına qayıdaq. Və rəhmətlik Qüdrət müəllimin qəbirüstü daşına aşağıdakı sözlər yazılsın: "Şərəfli yaşamış, qəlblərdə və əməllərdə yaşayan xalq müəllimi."

"Qüdrət müəllim mənim üçün çox dəyərli bir insandır" söyləyən "Vətəndaşların Sosial Rifahı naminə" İctimai Birliyinin sədri İradə Rzazadə vurğuladı ki, düzdür, şəxsən Qüdrət müəllimi tanımamışam, amma mənə tale belə bir xoşbəxtlik verdi ki, mən İrəvanda doğulmuşam və valideynlərim də müəllim olublar. Hər dəfə şagirdlərin və tələbələrin xatirələrində həmin müəllimlər haqqında dediklərini eşidəndə mən də onların necə gözəl müəllim olduqlarını hiss edirəm və unudulmadıqlarını görürəm. Mən çox xoşbəxtəm və Elza xanımı, həmçinin bütün ailə üzvlərini başa düşürəm, çünki o qururu necə yaşadıqlarını bilirəm. Mən İrəvanda yaşamışam, orada Hidayət müəllimlə tanış olmuşam. Hidayət müəllim Böyük Azərbaycan Teatrının direktoru idi və bizlər üçün böyük bir bayram idi ki, o teatr tamaşalarına gedib gözəl çıxışları izləyirdik. Hidayət müəllimin apardığı mübarizə sayəsində, teatrın çətinliklərinə baxmayaraq, Azərbaycan mədəniyyətini orada yaşadırdıq. Bir məsələni də qeyd etmək istəyirəm. Kitabda oxuduğum bir xatirə məni çox təsirləndirdi. Bir şagird deyirdi ki, "Öləndə məni Qüdrət müəllimin ayaq ucunda basdırın." Məncə, bu, bir pedaqoq üçün verilən ən böyük qiymətdir.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev bu gün işıqlı bir salonda, işıqlı bir Azərbaycan türkünün işığının ziyasına toplandığımızı vurğulayaraq qeyd etdi ki, onun 100 illik ömrünün hər mərtəbəsindən, həyat yoluna və taleyinə nəzər salırıq və bu zaman, ilk növbədə, gözlərimiz önündə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hidayət müəllimin "Burdan 1000 atlı keçdi" adlı publisistik romanı gəlir. Çünki o romanda bütövlükdə Qərbi Azərbaycanı əks etdirən nəhəng şəxsiyyətlər, oradan keçərkən iz qoyan insanlar və milli məfkurəmizin necə orada möhkəmləndiyi öz əksini tapır. Biz İrəvan Teatrının heyəti olaraq, Hidayət müəllimin dramaturgiyasında iki tamaşa hazırlamışıq və uğurla nümayiş etdirmişik. Bugünkü toplantı iştirakçılarının çıxışları və nəhəng şəxsin tərcümeyi-halına nəzər salarkən belə bir nəticəyə gəlirik: Həqiqətən də insanın adı ilə şəxsiyyəti arasında mistik bir bağ mövcuddur. Hər kəs öz adının və taleyinin daşıyıcısıdır. Baxın, Qüdrət müəllimin keçdiyi həyat yolunda heç bir qüdrətsizlik yoxdur. Onun taleyi, keçdiyi yol, hətta İkinci Dünya müharibəsində döyüşdüyü illər, o müharibədən aldığı güllə yaraları belə dözümünü və əzmini, qüdrətli insan olduğunu ortaya qoyur. Bu adın onun şəxsiyyəti ilə həqiqətən də mistik bir bağı olduğunu bu gün bir daha əminliklə deyə bilərəm. Bu gün, bu nəhəng şəxsin 100 illik yubileyi keçirilərkən, mən bir daha əmin oldum ki, Hidayət müəllim və Qüdrət müəllim ömrü boyu vicdanlı əməyin davamçısı olublar.

Çıxışlarda Qüdrət Orucovun yaradıcılığının maarifləndirici məqamlarının gənclər üçün bir vətənpərvərlik nümunəsi olduğu diqqətə çatdırıldı.

**Nigar Orucova,**
***"İki sahil"***